# TALAMA CİNAYƏTLƏRİNİN PREDMETİNİN ÖYRƏNİLMƏSİ MƏSƏLƏLƏRİ

**M.N.İMANLI**
***Baкı Dövlət Universiteti***

Cinayətin predmeti qəsdin yönəldiyi obyeкtin elementi, maddi əsası кimi müəyyən olunur. Obyeкtdən fərqli olaraq, predmet bütün cinayətlər üçün zəruri deyildir. Məsələn, şəxsiyyət əleyhinə cinayətlər zamanı qəsd şəxsiyyətin həyat və ya sağlamlığına, şərəf və ya ləyaqətinə, toxunulmazlığına, azadlığına yönəlsə də, şəxsiyyət bu cinayətlərin predmeti hesab olunmur. Bu mənada, predmetli və predmetsiz cinayətlər fərqləndirilə bilər.

Ümumi qaydaya görə, talama cinayətlərinin predmeti özgə əmlaкıdır. Cinayətin predmeti кimi əmlaкın bir sıra əlamətləri fərqləndirilir: 1) əmlaкın fiziкi və ya əşya əlaməti; 2) iqtisadi əlamətlər кompleкsi; 3) hüquqi əlamətlər кompleкsi. Burada iкinci və üçüncü əlamətlər özündə bir neçə əlaməti birləşdirir. Yalnız bu əlamətlər məcmu halında mövcud olduqda talamanın predmeti haqqında danışmaq olar.

S.M.Koçoi predmetin dörd əlamətini fərqləndirir: 1) fiziкi əlamət – predmet həmişə maddidir; 2) sosial əlamət – yalnız insan əməyi sərf edilmiş obyeкtlər predmet ola bilər; 3) hüquqi əlamət – yalnız özgənin əmlaкı predmet ola bilər; 4) iqtisadi əlamət – predmet müəyyən təsərrüfat qiymətinə maliкdir.

Göstərilən əlamətlər üçpilləli təsnifatlarda da əhatə olunur. Məsələn, İ.Y.Kozaçenкonun fiкrincə predmet üç əlamətə maliкdir: predmet əlaməti – o, maddi obyeкt кimi çıxış edir; iqtisadi əlamət – o, maddiləşmiş insan əməyini təcəssüm etdirir və hüquqi əlamət – əmlaк özgəninкidir və şəxsin ona hüququ yoxdur.

Sonuncu təsnifat üzrə talamanın predmetinin əlamətlərini ayrı-ayrılıqda nəzərdən кeçirəк.

***1. Fiziкi əlamət.*** Azərbaycan Respubliкasının Mülкi Məcəlləsinin 135.2-ci maddəsinə əsasən, ***əmlaк*** istənilən əşyaların və qeyri-maddi əmlaк nemətlərinin toplusudur. Mülкi Məcəllənin 135.1-ci maddəsinə görə əşyalara yalnız fiziкi obyeкtlər deyil, habelə pul və qiymətli кağızlar da daxildir. Predmet həm daşınar, həm də daşınmaz əmlaк ola bilər.

Mülкi Məcəllənin 135.4-cü maddəsinə əsasən ***daşınmaz əmlaкa*** torpaq sahələri, yer təкi sahələri, ayrıca su obyeкtləri, meşələri, çoxilliк əкmələr, binalar, qurğular və torpaqla möhкəm bağlı olan digər əşyalar, yəni təyinatına tənasübsüz zərər vurulmadan yerinin dəyişdirilməsi mümкün olmayan obyeкtlər aiddir. Daşınmaz əşyalara aid edilə bilməyən bütün əşyalar ***daşınar əşyalar*** sayılır.

Başqa şəxslərə verilə bilən və ya sahibinə maddi fayda və ya başqa şəxslərdən nəyi isə tələb etməк hüququ verməк üçün nəzərdə tutulan

tələblər və hüquqlar qeyri-maddi əmlak nemətləridir. Mənzillər, təsərrüfat qurğuları, bağ evləri bir çox hallarda mülkiyyət əleyhinə cinayətlərin predmeti kimi çıxış edir. Bazar iqtisadiyyatı şəraitində talamanın predmeti ayrı-ayrı hallarda azad sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün istifadə edilən vahid əmlak kompleksi şəklində özəl müəssisələr də ola bilir, çünki onlar da mülki hüquqların obyektləri sayılır və daşınmaz əmlaka aiddir.

Həmçinin mülki-hüquqi təsnifatı əsas götürərək göstərə bilərik ki, talamanın predmeti bölünər və bölünməz əşyalar, fərdi-müəyyən və əvəzedilən əşyalar, istehlak edilən əşyalar, mürəkkəb əşyalar, əsas əşya və onun ləvazimatı, əşyanın bəhəri, habelə insan əməyi tətbiq edilməklə yetişdirilmiş canlı bitkilər (bitkilərin kökü üstündəki məhsul), heyvanlar və balıqlar ola bilər.

Əqli mülkiyyət – ideyalar, baxışlar, insan zəkasının digər məhsulları, informasiya bu cinayətlərin predmeti deyildir. Göstərilən dəyərlilərə qəsd, məsələn, məlumatı ələ keçirmə – kommersiya və ya bank sirri olan məlumatları qanunsuz yolla əldə etmə və ya yaymanın (CM-in 202-ci maddəsi), yaxud casusluğun (CM-in 276-cı maddəsi), intellektual mülkiyyətin mənimsənilməsi – müəlliflik hüquqlarını və ya əlaqəli hüquqları pozmanın (CM-in 165-ci maddəsi) tərkibini yaradır.

Talamanın predmeti kimi ***pul*** dedikdə, Azərbaycan manatı və ya hər hansı digər valyuta şəklində olan nağd pul nəzərdə tutulur. Bir qayda olaraq, valyutanın dəyəri onun dəyişdirildiyi gündə Azərbaycan Respublikasının Milli Bankının kursu üzrə hesablanır. Ancaq ölkənin müxtəlif ərazilərində valyutanın səlahiyyətli banklar tərəfindən faktik satış dəyəri Milli Bankın rəsmi kursundan yüksək ola bilər. Böyük məbləğdə valyutanın talanması və ya hədə-qorxu ilə əldə edilməsi vaxtı talanan valyutanın manat ekvivalentinin dəyərində fərqlərin olması mümkündür. Bu isə əməlin tövsif olunmasında – «xeyli miqdarda» və ya «külli miqdarda» ziyan vurulması əlamətinin tətbiq edilməsi məsələsində həlledici rol oynayır. Bu məsələ vurulan zərəri ödəməli olan zərərçəkən üçün də maraqlıdır. Hansı kurs əsas götürülməlidir: Milli Bankın müəyyən etdiyi rəsmi kurs, yoxsa rəsmi kursdan müəyyən qədər fərqlənən yerli kurs? Fikrimizcə, bu halda cinayətin törədildiyi yerdəki və gündəki orta valyuta kursu əsas götürülməlidir. Zərərçəkənin ödəyəcəyi ziyanın məbləğinə gəldikdə isə o, cinayətin törədildiyi gün üçün deyil, ziyanın ödənilməsi haqqında qərarın çıxarıldığı gün üçün hesablanmalıdır.

Pulun predmet kimi tanınması üçün, o dövriyyədə olmalıdır. Lakin bəzi hallarda dövriyyədən çıxarılmış, ancaq bank sistemində və ya başqa sistemlərdə dəyişdirilə bilən pul da talama predmeti ola bilər. Bu zaman həmin «pulun» dəyəri onun rəsmən dəyişdirilə biləcəyi məbləğdə qiymətləndirilir. Bir çox nəzəriyyəçilərin, məsələn, A.V.Sevryukovun fikrincə, dövriyyədən götürülmüş valyuta, yalnız numizmatik, tarixi və ya elmi dəyərə malik olduqda cinayətin predmeti sayıla bilər. Bu fikirlə razılaşmaq olmaz. Zənnimizcə, dövriyyədən çoxdan çıxarılmış, lakin müəyyən dəyərə malik olan pul da predmet ola bilər. Məsələn, qiymətli metallardan hazırlanmış pul, tarixi cəhətdən qiymət kəsb edən çox nadir və ya qədimi pul və s. hazırda pul sayılmasa da, xüsusi dəyərə malik olduğu üçün talamanın predmetinə çevrilə bilər.

Bank hesablarında saxlanılan nağd olmayan pul da talamanın predmetidir. Lakin onun özünəxas cəhəti vardır. Belə ki, şəxs banka pul qoymaqla bu pula mülkiyyət hüququnu özündə saxlayır, lakin həmin

pulun faktiki sahibi kimi bank özü çıxış edir. Bu səbəbdən, həmin pulun məsələn, bankın xəzinəsindən oğurlanması zamanı cinayətdən ziyan çəkən pulun mülkiyyətçisi deyil, bank olur.

Nağd olmayan pul hər hansı sənədlərin saxtalaşdırılması və banka və ya başqa təşkilata təqdim edilməsi; özgəsinin plastik (kredit və ya hesablaşma) kartının oğurlanması və ondan istifadə edilməsi; pul vəsaitinin başqasının hesabına, o cümlədən kompüter texnologiyasından istifadə etməklə xarici banklara köçürülməsi və s. yollarla ələ keçirilə bilər. Hesab edirik ki, kredit kartının oğurlanması faktının özü başa çatmış talama sayıla bilməz. Bu, kredit kartında olan məbləği sonradan ələ keçirmək məqsədi olduqda talamaya hazırlıqdır. Yalnız cinayətkar kredit kartını təyinatı üzrə istifadə etdikdə, məsələn, supermarketdə alınan malın haqqını ödədikdə, talama başa çatmış olacaqdır.

Bazar iqtisadiyyatı şəraitində əmtəə-pul dövriyyəsində vətəndaşlar tərəfindən iri kommersiya banklarının plastik kredit hesablaşma kartlarından geniş miqyasda istifadə edilir. Müvafiq pul məbləğinin ekvivalenti sayılan həmin adsız ödəniş vasitələri də talamanın predmetini təşkil edə bilər. Lakin həmin kartlardan faktiki faydalanmaq üçün plastik kartı ələ keçirən cinayətkar onun rəqəmli kodunu bilməlidir, çünki bunu bilmədən bankdan pul ala bilməz.

Pullarla yanaşı qiymətli kağızlar müstəqil predmet sayılırlar. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 987.1-ci maddəsində qiymətli kağızlara belə anlayış verilir: «Qiymətli kağız müəyyənləşdirilmiş formaya riayət olunmaqla hər hansı hüququ təsdiqləyən elə bir sənəddir ki, həmin hüquq bu sənəd olmadan nə həyata keçirilə bilər, nə də başqa şəxsə verilə bilər. Qiymətli kağız başqasına verildikdə onun təsdiqlədiyi bütün hüquqlar da keçir». Mülki Məcəllənin 997.1-ci maddəsinə görə qiymətli kağızlara orderlər, veksellər, çeklər, istiqrazlar, səhmlər, əmtəə kağızları, depozit sertifikatı, ipoteka şəhadətnaməsi, opsion, fyuçers, girov kağızı, mənzil sertifikatı və Mülki Məcəllə ilə qiymətli kağızlar sırasına daxil edilmiş digər sənədlər aiddir. Mülki qanunvericiliyə görə qiymətli kağızlar – adlı qiymətli kağızlara (ondan istifadə hüququ qiymətli kağızın üzərində göstərilmiş şəxsə məxsusdur), adsız qiymətli kağızlara (onu təqdim edən istənilən şəxsə xidmət göstərilir) və orderli qiymətli kağızlara (qiymətli kağız üzrə ixtiyarlı şəxs öz sərəncamı ilə öz əvəzinə başqa ixtiyarlı şəxsi təyin edə bilir) bölünür. Yalnız adsız qiymətli kağız heç bir şərt olmadan cinayət predmeti kimi çıxış edə bilər. Onların götürülməsi həmin adsız kağızların mülkiyyətçisinə və ya qanuni sahibinə ziyan vurulması deməkdir. Adsız qiymətli kağız istənilən vaxt heç bir çətinlik yaranmadan göstərilən xidmət və ya alınan mal əvəzinə ödəniş kimi təqdim edilə, satıla, bağışlana və s. bilər. Nəzərə almaq lazımdır ki, başa çatmış cinayətin predmeti yalnız adsız (təqdim edənə) qiymətli kağızlar ola bilər.

Adlı qiymətli kağızların (məsələn, çek, veksel və s.) ələ keçirilməsi, ümumiyyətlə, onun sahibinə və ya mülkiyyətçisinə artıq ziyan vurulduğunu göstərmir. Belə qiymətli kağızlardan maddi mənfəət əldə etmək üçün qanunsuz sahibin onları müvafiq banklara və ya sair qurumlara təqdim etməsi kifayət deyildir, qanunsuz sahib onları sata da bilməz. Bu qiymətli kağızların dəyərini əldə etmək üçün əlavə hərəkətlər etmək lazımdır: məsələn, onları öz adına saxtalaşdırmaq və ya əksinə, öz şəxsiyyətini təsdiq edən sənədi qiymətli kağızda göstərilən adamın adına saxtalaşdırmaq lazımdır. Adlı qiymətli kağızın ələ keçirilməsi özözlüyündə başa çatmış cinayət deyildir, o, yalnız cinayətə hazırlıq kimi

qiymətləndirilir. Burada adlı qiymətli kağızlar cinayətin törədilməsi vasitəsi kimi çıxış edir. Cinayətin predmeti isə özgənin nağd və ya nağd olmayan puludur. Bu mənada çox hallarda adlı qiymətli kağızların talanmasına cinayətlərin məcmuyu kimi baxır: tamah məqsədi və ya digər şəxsi niyyətlə rəsmi sənədləri oğurlama (CM-in 326-cı maddəsi) və dələduzluq (CM-in 178-ci maddəsi). Fikrimizcə, bu fikir orderli qiymətli kağızlar üçün də doğrudur.

Qiymətli kağızların talama predmeti olması haqqında ümumi müddəa cinayət hüquq ədəbiyyatında əksəriyyət etibarı ilə qəbul olunmuşdur. Lakin M.M.Vetoşkina hesab edir ki, qiymətli kağız cinayət predmetinin məcburi əlamətlərindən birinə malik deyildir və buna görə ona predmet kimi baxıla bilməz. Müəllif yazır: «Qiymətli kağız mübadilə dəyərinə malikdir, yəni onun pul vahidləri ilə ifadə olunan dəyəri vardır (qiymətli kağızı satmaq, almaq, dəyişmək, hədiyyə etmək və s. olar), ancaq bu zaman qiymətli kağız kağızla ifadə olunan əşya kimi heç bir konkret insan tələbatını ödəmir, yəni o sənəd olaraq istehlak dəyərinə malik deyildir. Bu fikirlə razılaşmaq olmaz. Əgər müəllifin təklif etdiyi yolla getsək, onda qəbul etməliyik ki, istənilən valyuta ilə ifadə olunan nağd pul da cinayətin predmeti ola bilməz. Belə ki, o, «əşya olaraq» heç bir faydalı xassəyə, yəni istehlak dəyərinə malik deyildir. Pul kimi, qiymətli kağızın da özünəməxsus xüsusiyyəti ondan ibarətdir ki, o istənilən digər əşyaya dəyişdirilə bilər və beləliklə, istənilən istehlak tələbatını ödəyə bilər. M.M.Vetoşkinanın mövqeyinə uyğun olaraq, qiymətli kağızla onun məzmununu – əmlak hüququnu – inkar etməyə cəhd etsək, labüd olaraq qiymətli kağızın mülki hüquq anlayışının özünü təhrif etmiş olarıq. Müəllifin özü də qiymətli kağızla onda təsbit olunan əmlak hüquqlarının «qırılmaz birliyini» etiraf edir.

Cinayətin predmeti kimi çıxış edə bilən qiymətli kağızın dəyəri cinayətin törədildiyi ərazidə və gündə qiymətli kağız bazarında onun qiyməti ilə müəyyən edilir. Bu dəyər kağızda göstərilən nominal qiymətdən həm aşağı, həm də yuxarı ola bilər.

Daşınan əşyaların aşağıda göstərilən növləri Cinayət Məcəlləsinin 23-cü fəslinin mənasında predmet hesab olunmur və onlara qarşı əmlak xarakterli qəsdlər göstərilən müvafiq maddələrlə tövsif edilir:

1) nüvə materialları və radioaktiv maddələr (maddə 227);

2) odlu silah, döyüş sursatı, partlayıcı maddələr və qurğular (maddə 232);

3) narkotik vasitələr, psixotrop maddələr və ya prekursorlar (maddə 235).

Ümumi qaydaya əsasən, insan əməyinin maddiləşmədiyi təbii sərvətlərə talamanın predmeti kimi baxılmır, lakin bu, təbii ehtiyatın əmtəə-maddi dəyərlilər kateqoriyasına aid edilməsinin dəqiq və qəti meyarı hesab olunmur, çünki hazırda ətraf mühitin maddi komponentlərinin əksər hissəsi insan əməyini bu və ya digər dərəcədə qabaqlayır. Təbii ehtiyatların ayrı-ayrı növləri (balıqlar, xəzdərili heyvanlar, dekorativ ağac və kollar) insanlar tərəfindən təbiətin bioloji gücündən istifadə etməklə istehsal prosesinə daxil edilir və əmtəə məhsuluna çevrilir.

Ətraf təbii mühitin insan əməyi ilə yaradılmış maddi obyektləri, məsələn, süni meşə zolaqları, şəhərlərdə və digər yaşayış məntəqələrində əkilmiş ağaclar, balıq zavodlarında yetişdirilərək sonradan açıq su hövzələrinə buraxılmış nərə və qızıl balıq cinsindən olan qiymətli balıqlar və s. əmlak sayılmır və talamanın predmetini təşkil etmir. Onlar təbiətin elementləri kimi ekoloji cinayətlərin predmetini təşkil edir və

bunlara görə məsuliyyət Cinayət Məcəlləsinin Xüsusi hissəsinin 28-ci fəslinin müvafiq maddələri (256, 258 və 259) ilə nəzərdə tutulmuşdur.

Qızıl çıxaran müəssisənin ərazisində özbaşına qeyri-qanuni qızıl çıxarma və onu tamah niyyəti ilə özünün və ya üçüncü şəxslərin nəfinə əvəzsiz keçirmə mülkiyyət əleyhinə cinayətdir. Bu mənada qızılı, o cümlədən tərkibində qızıl olan külçələri və ya qarışıqları tamah niyyəti ilə qanunsuz ələ keçirmə əmlakı talama cinayətinin tərkibini yaradır. Bu cinayətin subyekti həm müəssisənin işçiləri, həm də əməlin xüsusi yerdə – müəssisənin ərazisində (qızıl çıxaran artellərdə) törədilməsindən xəbərdar olan istənilən digər şəxslər ola bilər. «Qızıl çıxaran müəssisənin ərazisi» şərti anlayışdır. Məhkəmə-istintaq təcrübəsi müəssisənin qüvvə və vasitələri ilə yeraltı sərvətlərin sənaye istismarı üçün meydançaların (düşərgələrin) təşkili, qiymətli metalların müəyyən olunması məqsədi ilə kəşfiyyat karxanalarının təchizatı, habelə qızılın bilavasitə çıxarılması ilə bağlı işlərin görüldüyü sahələri onun ərazisi kimi qəbul edir.

***2. İqtisadi əlamət.*** Bu əlamətin məzmunu barədə nəzəriyyədə mübahisələr mövcuddur. Məsələn, N.A.Lopaşenko predmetin iqtisadi əlamətləri sırasına iki müstəqil əlaməti, lakin bir-biri ilə qırılmaz surətdə bağlı olan, vahid kompleks təşkil edən əlamətləri daxil edir: 1) əmlak maddi dəyərli olmalıdır; 2) əmlaka, onu təbii vəziyyətindən çıxran insan əməyi sərf edilməlidir.

L.D.Qauxman talama predmetinin iqtisadi əlamətləri sırasına aşağıdakıları aid edir: 1) maddi dəyərlilik və 2) predmetin müəyyən qiymətə malik olması.

İqtisadi nöqteyi-nəzərdən bu baxışların heç birini düzgün saymaq olmaz. Əmlakın maddi dəyərliliyini və qiymətini bir-birindən ayırmaq mümkün deyildir, əmlakın dəyərliliyi məhz onun qiymətində təzahür edir. Eyni zamanda əmlakın maddi dəyərliliyini və ona sərf edilmiş insan əməyinin qiymətini fərqləndirmək iqtisadçıların fikrincə köklü şəkildə səhvdir. Əmlaka sərf edilmiş insan əməyi onun mübadilə qiymətini göstərir. O, əmlakın insan tələbatını ödəmək üçün yaradıldığını göstərən istehlak qiyməti ilə məcmu şəklində əmlakın qiymətində əks olunan dəyərini yaradır.

Əmlakın qəsd predmeti olması üçün o, ***maddi dəyərə*** malik olmalıdır. Bu, hər şeydən əvvəl onu göstərir ki, əmlak hər hansı insan tələbatını (maddi, mənəvi və sair) ödəməyə qadir olmalıdır. Burada söhbət əşyanın insan üçün faydalı olmasından gedir. Həmin tələbatların ümumən cəmiyyət üçün faydalı olub-olmaması, cəmiyyət tərəfindən təqdir edilib-edilməməsinin əhəmiyyəti yoxdur. Belə ki, ayrı-ayrı adamların seksual tələbatını, o cümlədən normadan kənara çıxan patoloji tələbatını ödəyən erotik jurnallar və predmetlər cəmiyyətin nöqteyi-nəzərindən faydalı sayılmır. Ancaq göstərilən predmetlər maddi qiymətlilər təşkil edir və onların talanması Cinayət Məcəlləsinin 23-cü fəslində nəzərdə tutulmuş maddələrlə tövsif edilir.

Parnoqrafik predmetlər və ya materiallarla məsələ daha çətindir. Bir qayda olaraq, onlar şəxsin qanuni mülkiyyətində ola bilməz. Bundan başqa, parnoqrafik materialları və ya əşyaları qanunsuz yayma cinayət qanunu ilə cəzalandırılır (maddə 242). Buna görə qanunun ruhu nöqteyi-nəzərindən onların qanunsuz ələ keçirilməsi qanuni mülkiyyətə və ya qanuni sahibliyə qarşı yönəlmiş cinayət hesab edilə bilməz. Bu mənada, cinayət qanunvericiliyinə qanuni mülkiyyət hüququnun və ya qanuni əmlak sahibliyi hüququnun, özgə əmlakının talanması ilə bağlı olmayan,

ancaq talama üsulları (gizli, açıq, zorakılıq, aldatma və ya etibardan sui-istifadə, mənimsəmə və ya israf) ilə pozulması haqqında tərkib daxil etmək lazımdır.

İnsana xidmətlərinin qiymətləndirilməsi olaraq verilmiş dövlət mükafatları da onun mənəvi tələbatını ödəyir. Bununla əlaqədar, fərqlənmə nişanları (orden və medallar) kifayət qədər böyük maddi dəyərə malik olduqda, onlar cinayətin predmeti sayılmalıdır. Əlvan metallardan, bəzən isə qiymətli metallardan hazırlanmış və ya onların qatışdırıldığı dövlət mükafatları böyük qiymətə malikdir. Xüsusi ekspertizanın aydınlaşdırdığı həmin dəyər talamanın miqdarının müəyyən edilməsi üçün əsas olmalıdır. Dövlət mükafatlarının qara bazardakı satış qiyməti, həmin mükafatların hazırlandığı materialların qiymətindən bəzən bir neçə dəfə yüksək olur. Burada dövlət mükafatlarının satış üçün nəzərdə tutulmadığını nəzərə almaq lazımdır. Eyni zamanda qeyd edək ki, dövlət təltifini əldə etmə və ya satma Cinayət Məcəlləsinin 325-ci maddəsi ilə müstəqil cinayət məsuliyyətinə səbəb olur.

Əgər əşya tələbat dəyərinə malik deyildirsə, o faydalı xassəsini itirmişsə və yararsız vəziyyətə düşmüşsə, bir qayda olaraq, maddi dəyərini də itirmiş olur. Belə əmlak predmet ola bilməz.

Əmlakın maddi dəyər əlaməti, həmçinin əmlakın götürülməsinin cinayətkar xarakterinin olması üçün onun qiymətinin kifayət qədər olmasını nəzərdə tutur. Hər hansı tələbatı ödəmək üçün nəzərdə tutulmuş maddi aləmin bütün əşyaları prinsipcə dəyərə malikdir. Belə ki, mülkiyyətçisinin iradəsi ziddinə götürülmüş ağ vərəq, bloknot, qələm, adi alışqan və s.-in də öz qiyməti vardır. Lakin həmin əşyaların cinayətin predmeti olması üçün vurulan zərərin məbləği tərkibin yaranması üçün kifayət olmalıdır.

Bəzi predmetlər gündəlik tələbatları ödəmə dəyərinə görə deyil, qədimliyinə, məşhur adamlara, tarixi şəxsiyyətlərə məxsus olmasına görə yüksək qiymətləndirilir. Məsələn, London hərraclarından birində məşhur fizik İsaak Nyutona məxsus baş tükləri 17 min ABŞ dollarına satılmışdır. Bu mənada A.N.İqnatovla razılaşmaq lazım gəlir ki, «məşhur adamların alğı-satqı predmeti ola bilən, hərraca çıxarıla bilən avtoqraflı fotoşəkli, gündəlikləri, məktubları və s. əmlak qəsdinin predmeti sayılmalıdır».

Hər hansı əmlak hüquqlarını özündə əks etdirməyən və ya valyuta surroqatı olduğu üçün ödəmə vasitəsi qismində çıxış etməyən sənədlər, məsələn, ödənilməli olan hesab, ticarət müəssisələrinin əmtəə çekləri, əmtəə qaimələri, qəbzlər və s. talama cinayətlərin predmeti hesab olunmasa da, qəsdən və ya ehtiyatsızlıqdan məhv edildikdə mülkiyyət əleyhinə müvafiq cinayətlərin tərkibini yaratmalıdırlar. Əgər bu sənədlər təqsirkar tərəfindən onları sonradan saxtalaşdırmaq və aldatma yolu ilə əmlak sərvətlərini və ya pul vəsaitlərini əldə etmək üçün istifadə məqsədi ilə talanırsa, əməl dələduzluğa hazırlıq kimi qiymətləndirilməlidir. Restoranın, kafenin, teatrın qarderobundan vətəndaşın üst geyimlərini götürmək məqsədi ilə nömrənin, jetonun və s. zərərçəkmişdən oğurlanması təqsirli şəxsin son məqsədinə görə oğurluq kimi tövsif edilir, lakin bunlar öz-özlüyündə talamanın predmeti sayılmır, amma onun törədilməsi vasitəsi ola bilər.

«Valyuta tənzimi haqqında» Azərbaycan Respublikasının 21 oktyabr 1994-cü il tarixli qanunu ilə valyuta sərvətləri kateqoriyasına aid edilmiş xarici valyutada qiymətli kağızların – ödəmə sənədlərinin (çeklər, veksellər və s.), fond sərvətlərinin (səhmlər, istiqrazlar) və digər

borc öhdəlikləri sənədlərinin talanması, hədə-qorxu ilə tələb edilməsi və ya məhv edilməsi zamanı əməl Cinayət Məcəlləsinin 23-cü fəslinin müvafiq maddəsi ilə tövsif olunur.

Müəyyən əmlak hüquqlarını, məsələn, şəhər nəqliyyatında, şəhərətrafı elektrik qatarlarında, dəmiryolu, su və hava nəqliyyatında istifadəsi yalnız təqdim edilməsi ilə mümkün olan, pulsuz gediş hüququnu təsdiq edən qiymətli kağızların xüsusi növ müxtəlifliyinə vahid gediş biletləri, gediş talonları, abunə kitabçaları, habelə nəqliyyatın göstərilən növlərində gediş biletləri aiddir. İqtisadi nöqteyi-nəzərdən sadalanan sənədlər mahiyyətcə valyuta surroqatı sayılır və ciddi məhdudlaşdırılmış hədlərdə vətəndaşa maddi xarakter daşıyan əvəzli nəqliyyat xidməti göstərməyə görə ödəmə vasitəsi funksiyasını yerinə yetirir. Bu qiymətli kağızlar xidmətin qiymətinə bərabər nominal dəyərə malik olmaqla, ödəmə vasitəsi kimi adi pulları əvəz edir.

Elektrik qatarında, trolleybusda, avtobusda, tramvayda, metroda pulsuz gedişə hüquq verən gediş talonlarının, aylıq gediş biletlərinin və s. oğurlanması təqsirli şəxsin onlardan təyinatı üzrə istifadə edə və ya onları başqasına sata bilməsindən asılı olmayaraq başa çatmış cinayət tərkibini yaradır.

Müvafiq əlavə təsdiq və ya Mülki Məcəllənin 987.3-cü maddəsində göstərildiyi kimi, məcburi rekvizitlərə malik olmadan öz-özlüyündə dəyər daşıyıcısı sayılmayan qiymətli kağızların tamah niyyəti ilə ələ keçirilməsinin cinayət-hüquqi qiymətləndirilməsi haqqında məsələ başqa cür həll olunur. Belə sənədlərə, məsələn, nəqliyyatın müxtəlif növlərinə biletlərin blankları aiddir. Onların oğurlanmasının tövsifi əsas etibarilə qəsdin istiqamətindən, cinayətin motiv və məqsədindən asılıdır. Bu cür sənədlər öz-özlüyündə özgə əmlakını talamanın predmeti ola bilməz.

Dəmiryolu, hava, su və ya avtomobil nəqliyyatında əlavə məlumatlar daxil edildikdən sonra (möhürlə təsdiqləmə, sahibinin familiyasının göstərilməsi və s.) təyinatı üzrə istifadə edilə bilən gediş biletlərini oğurlamış şəxsin hərəkətləri talamaya hazırlıq, saxtalaşdırılmış sənədlərin qismən və ya tamamilə realizəsi zamanı isə müvafiq olaraq talamaya cəhd və ya başa çatmış talama kimi tövsif edilə bilər. Belə hallarda cinayətin predmeti həmin sənəd deyil, onun üçüncü şəxslərə satılmasından əldə olunan pul hesab edilir. Biletin saxtalaşdırılaraq pulun geri qaytarılması üçün təqdim edilməsi saxtalaşdırma (CM-nin 320-ci maddəsi) və dələduzluğa (CM-in 178-ci maddəsi) görə – maddələrin məcmuyu qaydasında tövsif olunmalıdır.

***3. Hüquqi əlamət.*** Talama cinayətlərinin qəsd etdiyi predmetin hüquqi əlaməti onun özgəyə məxsus olmasıdır. Şəxsin öz əmlakına qəsd etməsi mülkiyyət əleyhinə cinayət hesab olunmur. Birgə mülkiyyət hüququ əsasında ər-arvada məxsus olan əmlakın onların hər hansı biri tərəfindən digərinin razılığı olmadan gizli götürülməsi (oğurlanması) və ya məhv edilməsi də cinayət tərkibi yaratmır.

### 1.4. Talamanın obyektiv cəhəti.

Cinayətin obyektiv cəhəti ümumi qaydaya görə «müəyyən zamanda və məkanda, müəyyən şəraitdə baş verən, mövcud ictimai münasibətlərə ziyan vuran ictimai təhlükəli qəsdin zahiri cəhəti» kimi müəyyən olunur. Burada ictimai təhlükəli qəsd, yəni əməl istənilən cinayətin obyektiv cəhətinin ***zəruri əlamətini*** təşkil edir. Qəsd həm hərəkət, həm də hərəkətsizlik yolu ilə törədilə bilər. Cinayətin obyektiv cəhətinə aid olan digər (fakultativ) əlamətlər: cinayətin törədildiyi zaman, məkan və

şərait; cinayətin törədilmə üsulu və bu zaman istifadə edilən vasitələr; cinayətin nəticəsi və səbəbli əlaqələr. Bu əlamətlər konkret tərkibdə zəruri əlamət kimi göstərilə və ya göstərilməyə bilər; onların bir neçəsi və ya hamısı tərkibin yaranması üçün zərurui ola və ya olmaya bilər. Məsələn, Cinayət Məcəlləsinin 178.1-ci maddəsində əməlin nəticəsi və səbəbli əlaqə barədə konkret göstəriş olmasa da, tərkibin yaranması üçün özgə əmlakı faktiki olaraq təqsirkara keçmiş olmalı (nəticə) və bu, təqsirkar tərəfindən aldatmanın və ya etibardan sui-istifadənin nəticəsi olmalıdır (səbəbli əlaqə).

Bütün talama cinayətləri özgə əmlakına və ya əmlak hüquqlarına bu və ya digər formada qəsd etdiyi üçün, onların obyektiv cəhəti ümumi formada «mülkiyyət əleyhinə qəsd» kimi müəyyən oluna bilər. Burada qəsd dedikdə, zərərçəkən şəxsə həm qəsdən, həm ehtiyatsızlıqdan əmlak ziyanı vurulması nəzərdə tutulur.

Mülkiyyət əleyhinə qəsdin müxtəlif formaları var və bu formalar Cinayət Məcəlləsinin 23-cü fəslinə daxil olan cinayətlərin fəsil daxilində nəzəri təsnifatı üçün əsas götürülür. Bunlar ən ümumi formada: 1) əmlakı (və ya əmlak hüquqlarını) qanunsuz ələ keçirmə və ya ələ keçirməyə cəhd; 2) əmlakı ələ keçirmədən ziyan vurma kimi fərqləndirilə bilər.

Birinci qrup cinayətlərə Cinayət Məcəlləsinin 177, 178, 179, 180, 181, 182, 183, 185, 188-ci maddələri ilə nəzərdə tutulmuş əməllər aiddir. Bu əməllərin obyektiv cəhəti özgə əmlakının və ya əmlak hüquqlarının təqsirkarın nəfinə ələ keçirilməsinə yönəlmiş davranış aktlarında ifadə olunur. Burada aşağıdakı məsələlər qeyd olunmalıdır:

1) Cinayət Məcəlləsinin 185 və 188-ci maddələrilə nəzərdə tutulan cinayətlər istisna olmaqla, bu qrupa daxil olan bütün cinayətlərdə əmlakın təqsirkar tərəfindən həmişəlik ələ keçirildiyi nəzərdə tutulur. 188-ci maddəni o mənada istisna edirik ki, özgə torpağının özbaşına becərilməsi bu torpaq sahəsini həmişəlik zəbt etmək məqsədi daşımaya da bilər. Özgə əmlakının müvəqqəti istifadə məqsədilə talanmasına, məsələn, oğurlanmasına, soyğunçuluq yolu ilə ələ keçirilməsinə «müvəqqəti» əlaməti şamil olunmur;

2) ələ keçirmə (185-ci maddə istisna olmaqla) tamah məqsədilə törədilir;

3) bu qrupa daxil olan Cinayət Məcəlləsinin 177, 178, 179, 180, 181 və 183-cü maddələri ilə nəzərdə tutulmuş əməllər talama xarakterli, digərləri qeyri-talama cinayətləridir;

4) tərkibin yaranması üçün əmlakın faktiki ələ keçirilməsi bir qisim cinayətlərdə zəruri, digər qismində qeyri-zəruridir. Belə ki, Cinayət Məcəlləsinin 181 və 182-ci maddələrilə nəzərdə tutulan cinayətlərin başa çatması üçün əmlakın ələ keçirilməsi tələb olunmur, bu qrupun digər cinayətlərində isə tərkibin yaranması üçün əmlak təqsirkarın sərəncamına keçməlidir.

İkinci qrupa Cinayət Məcəlləsinin 184, 186, 187, 189 və 189-1-ci maddələrilə nəzərdə tutulan cinayətlər aiddir. Bunların hər birinin obyektiv cəhəti özünəməxsus xüsusiyyətlərə malikdir. Cinayət Məcəlləsinin 184-cü maddəsi üzrə əmlak ziyanı zərərçəkmişə verilməli olan əmlakın qəsdən verilməməsi, 186 və 187-ci maddələr üzrə özgə əmlakının qəsdən və ya ehtiyatsızlıqdan məhv edilməsi və ya korlanması, 189-cü maddə üzrə zərərçəkmişin telefon xəttinə qanunsuz daxil olmaqla danışıqlar aparma nəticəsində ziyan vurulması nəzərdə tutulur. Cinayət Məcəlləsinin 186, 187, 189-cu maddələri maddi tərkiblidir, onlar faktiki ziyanın vurulduğu andan başa çatır. 184 və 189-1-ci maddələr üzrə

zərərçəkmişə ziyan əldən çıxan fayda şəklində vurulur və cinayətin başa çatması üçün faydanın əldən çıxdığı an müəyyən edilməlidir.

**1.5. Talamanın subyektiv cəhəti və subyekti.**

Cinayətin subyektiv cəhəti cinayət törədən şəxsin hüquqazidd fəaliyyətinin psixi məzmunu ilə müəyyən olunur. Bu məzmuna əsasən onun təqsirinin forması (qəsd və ya ehtiyatsızlıq), davranışının (hərəkət və ya hərəkətsizliyinin) motiv və məqsədi aşkara çıxarılır.

Talama cinayətləri Cinayət Məcəlləsinin 187-ci maddəsilə nəzərdə tutulan əməl istisna olmaqla ***birbaşa qəsdlə*** törədilir. Təqsirkar öz hərəkətinin ictimai təhlükəli olduğunu dərk edir, bunun nəticəsində mülkiyyətçiyə və ya sair sahibə maddi ziyan vurulmasının labüd olduğunu görür və bunu arzu edir. Lakin bu, mülkiyyət əleyhinə edilən cinayət zamanı təqsirkarın qəsdi ilə əhatə olunmayan nəticələrin mümkün olmadığı anlamına gəlməməlidir. Belə cinayətlər zamanı təqsirkarın ehtiyatsızlığı üzündən zərərçəkmişin sağlamlığına zərər vurulması, həyatdan məhrum edilməsi, başqa ağır nəticələrin meydana çıxması mümkündür.

Cinayət Məcəlləsinin 185, 186 və 187-ci maddələri ilə nəzərdə tutulan əməllər istisna olmaqla, digər bütün mülkiyyət əleyhinə cinayətlər üçün ***tamah motivi*** və ya tamah məqsədi səciyyəvidir. Bu səbəbdən, tamah motivi barədə müəyyən təsəvvürlərə nəzər salmaq lazım gəlir.

«Motiv» latın mənşəli söz olub, «hərəkətə gətirən», «sövq edən» mənasını verir. Psixologiyada motiv insanı davranışa sövq edən ruhi hərəkətverici qüvvə kimi başa düşülür. Konkret motivin əsasında insanın konkret hissləri dayanır. Hisslər insan davranışını bilavasitə müəyyən etmir. Bunun üçün onlar motivasiya prosesindən keçməli və konkret sövqedici qüvvə şəklini almalıdırlar. Motivasiya prosesində hisslər müəyyən ehtiyacların yaranmasına səbəb olurlar. Məsələn, aclıq hissi qida ehtiyacını, yuxusuzluq hissi yatmağa olan ehtiyacı və s. Ehtiyaclara psixi münasibət tələbat adlanır, başqa sözlə, tələbat – dərk olunmuş ehtiyac kimi qəbul olunur. Tələbatların ödənilməsi üçün müxtəlif üsullar nəzərdən keçirilir və onlar arasında konkret halda tələbatı fərdin fikrincə ən yaxşı formada ödəməyə qadir olan üsul seçilir, tələbatı ödəyəcək obyekt konkretləşdirilir. Obyekt müəyyənləşir, onun hansı formada əldə edilməsi niyyəti yaranır, niyyət qəti məqsəd doğurur, məqsəd isə məqsədyönlü hərəkətlə realizə edilir. Fərd yalnız konkret fəallıq nəticəsində müəyyən obyekti əldə edir və istehlaka yönəldir.

Hansı ehtiyacları doğurmasından və ya hansı ehtiyaclarla əlaqədar yaranmasından asılı olaraq, insanın bütün hissləri bu və ya başqa adla ifadə olunur. Məsələn, fərdə qarşı edilmiş pislik nəticəsində qisas hissləri, rəqibin uğurlarına qarşı paxıllıq, sevgidə qısqanclıq, faydalanmaq cəhdləri ilə bağlı tamah hissləri və s. meydana çıxır.

Tamah hissləri, tamah niyyəti və ya tamah motivi, necə ifadə olunursa-olunsun, insanın müəyyən maddi və ya mənəvi tələbatlarının ödənilməsinə sövq edən ruhi sövqedici qüvvə kimi başa düşülməlidir. Tamah hissi həm maddi, həm də mənəvi dəyərlilərlə bağlı meydana gəlir. Məsələn, mağazadan bir qutu şəkər tozu oğurlayan şəxs bununla öz maddi tələbatını, bir musiqi diski oğurlayan şəxs isə mənəvi tələbatını ödəmək məqsədilə hərəkət edir. Lakin tamah hissi doğuran tələbatlar və onların bölgüsü göründüyü qədər də bəsit deyildir. Tamah hissi o vaxt daha güclü təzahür edir ki, o, maddi dəyərlilərin mənəvi tələbata, mənəvi zövq vasitəsinə çevrilməsi ilə bağlı olurlar. Bu halda maddi dəyərlilər adi, gündəlik və ya ömürlük maddi tələbatları deyil, var-dövlət

hərisliyini, sonsuz varlanma cəhdlərini ödəməyə xidmət edir. Məsələn, belə bir maraqlı fakta diqqət edək:

ABŞ vətəndaşı, yoxsulluq içində yaşayan Hendiyetta Qrin vəfat etdikdən sonra bankda onun hesabında 90 milyon dollar olduğu aşkara çıxmışdı. Vəfatından bir il əvvəl onun oğlunun ayağında cərrahiyyə əməliyyatı aparılması lazım gələndə, H.Qrin pulsuz xəstəxana tapmaq üçün 10 gün vaxt sərf etmiş və əməliyyatın gecikməsi oğlunun ayağının kəsilməsi ilə nəticələnmişdi. H.Qrin özü isə mağazada süd alarkən 2 sentə görə satıcı ilə bərk mübahisə edərək ürək partlamasından ölmüşdü.

Göründüyü kimi, bu halda fərdin malik olduğu böyük məbləğdə pul onun maddi tələbatlarının ödənilməsi üçün deyildir. Burada maddi sərvət fərdin şəxsiyyəti üzərində tam hegemon, idarəedici rola malikdir. Fərd ehtiyac içərisində yaşayır, lakin sərvətə toxunmur, onu hər vasitə ilə artırmağa çalışır.

Adi danışıqda mənfi anlamda qəbul edilsə də, «tamah» bütün insanlara xas olan təbii instinktiv reaksiyadır. İnsanlıq sürü formasından müasir sivilizasiya səviyyəsinə məhz tamah hissi kimi qüdrətli sövqedici qüvvənin sayəsində gəlib çıxmışdır və durmadan irəli getməkdədir. Tamah hissləri mülkiyyətin və onun bazasında müasir iqtisadi həyatın yaranmasını şərtləndirmiş və bu gün də cəmiyyəti yaşadan əsas amildir. Hüquqa və əxlaqa uyğun çərçivələrdə təzahür etdiyi və ödənildiyi bütün halllarda tamah hissi cəmiyyət tərəfindən pozitiv qarşılanır. Tamah o vaxt mənfi təzahürə çevrilir ki, o, mövcud mülkiyyət münasibətlərini pozmaqla, başqa şəxslərin, cəmiyyətin, dövlətin mənafeyinə zidd üsullarla ödənilir. Mülkiyyət əleyhinə edilən qəsdlərin böyük qisminin hərəkətverici qüvvəsi kimi tamah hissləri məhz bu anlamda, yəni mənfi sosial təzahür kimi qəbul olunmuşdur.

Cinayət Məcəlləsinin 185 və 186-cı maddələri ilə nəzərdə tutulan əməllər başqa motivlərlə törədilir. Birinci halda təqsirkarın niyyəti nəqliyyat vasitəsini idarə etmə ilə bağlı ehtiraslarını təmin etmək, sadəcə avtomobildə gəzmək, başqa cinayətin törədilməsini asanlaşdırmaq, nəqletmə ilə bağlı ehtiyacları ödəmək və s.-dirsə, əmlakı qəsdən məhv etmə zamanı qisas, paxıllıq, xuliqanlıq, rəqabət və s. kimi zəminlər mümkündür.

Talamanın oğurluq, soyğunçuluq və quldurluq formalarına görə cinayətin subyekti cinayət törədilənə 14 yaşı tamam olmuş anlaqlı fiziki şəxslər ola bilər. Talamanın qalan formalarına (dələduzluq, mənimsəmə və ya israf etmə, xüsusi dəyəri olan əşyaları talama, təbii qazın, elektrik və ya istilik enerjisinin talanması) görə cinayət məsuliyyətini cinayət törədiləndə 16 yaşı tamam olmuş anlaqlı fiziki şəxslər daşıya bilər. Talamanın mənimsəmə və ya israf etmə forması yalnız xüsusi subyekt tərəfindən törədilə bilər. Talamanın dələduzluq formasında xüsusi subyekt tövsifedici tərkibin əlaməti qismində çıxış edə bilər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Cinayət Məcəlləsi. Hüquq ədəbiyyatı nəşriyyatı. 2003
2. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Dərslik.
3. İmanov M.N., Quliyev R. Cinayət hüququ. Xüsusi hissə. Dərslik. 2001.
4. İmanov M.N. Cinayət hüququ xüsusi hissə məsələlər toplusu birgə müəllif. Dərslik. Bakı: 2004.
5. İmanlı M.N. Mülkiyyət əleyhinə edilən cinayətlər. Dərslik. Bakı: Əbilov,

Zeynalov və oğulları, 380 s.
6. Лопашенко Н.А. Преступления против собственности. Теоретико-прикладное исследование. М.: «ЛексЭст», 2005, с. 170-171.
7. Уголовное право Российской Федерации. Особенная часть / Под ред. проф. Л.В.Иногамовой-Хегай, проф. Рарога, проф. А.И.Чучаева. М.: 2004, с. 172-173.
8. Постатейный комментарий к Уголовному кодексу Российской Федерации / Под ред. А.И.Чучаева. М.: 2004, с. 357-358.
9. Севрюков А.П. Хищение имущества: криминологические и уголовно-правовые аспекты. М.: 2004, с. 37.
10. Уголовное право. Особенная часть. Под ред. В.Н.Петрашева. М.: 1999, с. 166.
11. Ветошкина М.М. Ценные бумаги как предмет хищения. Автореф. дисс.… канд. юрид. наук. Екатеринбург: 2001, с. 12.
12. Ветошкина М.М. Ценные бумаги как предмет хищения. Автореф. дисс.… канд. юрид. наук. Екатеринбург: 2001, с. 13.
13. Лопашенко Н.А. Преступления против собственности: теоретико-прикладное исследование. М.: «ЛексЭст», 2005, с. 188.
14. Уголовное право: Часть Общая. Часть Особенная / Под ред. Л.Д.Гаухмана, Л.М.Колодкина и С.В.Максимова. М.: 1999, с. 387.
15. Игнатов А.Н., Красиков Ю.А. Курс российского уголовного права: В 2-х т. Т. 2. Особенная часть. М.: 2002, с. 200.

## ВОПРОСЫ ИЗУЧЕНИЯ ПРЕДМЕТА ХИЩЕНИЯ

**М.Н.ИМАНЛЫ**

### РЕЗЮМЕ

Предмет преступления определяется как элемент объекта, материальная основа, на которые направлен умысел. По сравнению с объектом, предмет не характерен для всех преступлений. В этом значении могут различаться предметные и беспредметные преступления.

Как правило, предметом хищения является чужое имущество. Как предмет преступления, так и имущество, характеризуются различными характеристиками: 1) физическое или предметное свойство имущества; 2) комплекс экономических свойств; 3) комплекс правовых свойств. Только при наличии всех этих характеристик можно говорить о предмете хищения.

В соответствии со ст.135.2 Гражданского кодекса Азербайджанской Республики имущество - это совокупность любых предметов и нематериально-имущественные богатства.

## QUESTIONS OF RESEARCH OF SUBJECT OF PLUNDER CRIMES

**M.N.IMANLI**

### SUMMARY

The subject of crime is defined as element of subject, material basis to which it is directed intention. In comparison with object, subject is not characteristic for all crimes. In this mean it is discriminated crimes which has subject and crimes which has not subjects.

As a general rule subject of plunder is another's property. As a subject of crime, so property is characterized with different characteristics: 1. physical or subjective property. 2. complex of economical property. 3. complex of legal properties. Only in casa existing of all these properties we can talk about subject of crime.

I accordance with article 135.2 of Civil Code of Azerbaijan Republic property is set of all subjects and immaterial wealth.